**Təhsil Nazirliyinin 04.04.1997-ci il tarixli,**
**198 №li əmri ilə təsdiq edilib**

# Ali təhsil müəssisələrinin inşaat, maddi-texniki təchizat, kadr potensialı və strukturuna qoyulan minimum normalar

## 1. Ümumi müddəalar

1.1.Bu "minimum normalar" Azərbaycan Respublikası ərazisində yerləşən, tabeliyindən və mülkiyyət formasından aslı olmayaraq müəyyən olunmuş qaydada ali peşə təhsil proqramlarını həyata keçirməyə iddia edən bütün tədris müəssisələrinə şamil edilir.

1.2.Minimum normalar Azərbaycan Respublikası "Təhsil Qanunu"na, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 mart 1995-ci il tarixli 72 saylı qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisəsi haqqında əsasnamə"yə və Azərbaycan Respublikası Təhsil Nazirliyinin digər normativ sənədlərinə əsaslanır.

## 2. Ali təhsil müəssisələrinə dair ümumi tələblər.

2.1.Ali məktəblər tələbə kontingentinin sayına görə üç qrupa bölünür :

- tələbə kontingentinin sayı (axşam təhsil üzrə tələbələrin sayı 1/2-ə, qiyabi təhsil üzrə isə 1/3-ə vurulur) 2000 nəfərdən az olan III qrup ;
- tələbə kontingentinin sayı 2000-dən 5000 nəfərə qədər olan II qrup;
- tələbə kontingentinin sayı 500 nəfərdən çox olan I qrup.

Ali təhsil müəssisəllərinin (qrupdan aslı olmayaraq) aşağıdakı tədris yerləri (bina və otaqlar) olmalıdır:

- seminar məşğələləri üçün auditoriyaların sayı əyani şöbədəki tədris qruplarının sayının 40%-dən az olmamalıdır;
- mühazirə auditoriyalarının sayı həmin ali məktəbdə normativə uyğun təşkil olunmuş birləşdirilmiş qrupların (protokoların) sayının ən azı 40%-ə qədəri olmalıdır;
- təhsil müəssisəsinin bütün müvafiq tələbə kontingentinin tələbatını təmin edə bilən tədris laboratoriyaları, emalatxanaları və fənn kabinetləri;
- mühazirə dərslərini əyaniləşdirmək üçün müvafiq qurğu, cihaz və avadanlıqlarla təchiz olunmuş nümayiş laboratoriyaları;
- kurs və diplom işlərinin (layihələrini) yerinə yetirmək və tərtib etmək üçün lazımi avadanlıqlarla təchiz olunmuş tədri-tətqiqat laboratoriyaları, emalatxanaları, kabinetləri, istehsalat sahələri və ixtisaslaşdırılmış iş otaqları;
- təhsil müəssisələrində hər bir qrup üçün tədris olunan müvafiq fənlərin hər biri üzrə ən azı bir-iki əsas ədəbiyyat (3 nüxsədən az olmaqla) olan kitabxanalar;
- avtomatlaşdırılmış tədris sistemləri və kompleksləri;
- təhsildə informasiya texnologiyası və kompüter öyrədici sistemlər;
- tədris idman zalları, meydançaları və digər idman qurğuları;
- hesablama texnikası vasitələrindən istfadə olunmaqla elmi-tədqiqat laboratoriyaları
- mədəni-kütləvi təyinatlı otaqlar və zallar;
- sanitar və məişət xidməti təyinatlı otaqlar;
- təhsil müəssisəsinin tələbə və müdavimlərinin təmi edən yataqxanalar;
- tədris təcrübə təsərrüfatları;
- təlim-təcrübə meydanları və xüsusi qurğular;
- rəhbərlik və idarəedici işci heyəti üçün müvafiq normativlərə uyğun iş otaqları,(rektor və prorektorlar, mühasibat, ayrı-ayrı şöbələr,kafedrala, dekanlıqlar və s. üçün).

Bu minimum normalar ayrı-ayrı otaq (yer) növləri üçün aşağıdakı minimum tələbləri müəyyən edir:

- bir tələbəyə düşən faydalı sahə ən azı 5 kv.m.
- nəzəri məşğələlər auditoriyasında ən azı 1,5 kv.m.

- laboratoriya və xüsusi təyinatlı auditoriyalardan – kənd təsarrüfatı təyinatlılar üçün 7 kv.m., texniki təyinatlılar üçün 6 kv.m., humanitar təyinatlılar üçün 5 kv.m., bədii təyinatlılar üçün 6 kv.m., yataqxanalarda 5 kv.m., tədris və tədqiqat kabinetlərində 3 kv.m., oxu zallarında 2 kv.m.

Hər 24×12 kv.m. və 36×12 kv.m. sahəyə düşən idman zallarının buraxma qabiliyyəti bir növbədə müvafiq olaraq 1-2 tədris qrupu buraxmağa hesablanır.

**3. Tələbə və professor-müəllim heyətinin tədris yükünün ümumi normativləri.**

3.1.Ali təhsil müəssisələrində tələbələrin bakalavr pilləsində həftəlik auditoriya saatlarının miqdarı 28-32, ümumi saatların miqdarı 54, magistratura pilləsində uyğun olaraq 12-20 və 54 saatdır.

3.2.Tədris qruplarının dolduğu maddi texniki bazadan asılı olaraq 12-30 nəfər sayında müəyyənləşdirilir, eyni ixtisas üzrə olan tədris qrupunda tələbələrin sayı 30 həftədən az olduqda qrupun bölünməsi aparılmır. Yalnız bəzi spesfik məşğələlər üzrə (xarici dil, laboratoriya, yaradıcılıq və s.) tədris qrupları müvafiq normativlərə uyğun olaraq yarımqruplara bölünürlər.

Mühazirə dərslərində ixtsas fənləri üzrə eyni ixtisas; ümumi elmi fənlər üzrə eyni ixtisas və istiqamət humanitar və sosial fənlər bölmü üzrə saatların miqdarı və tədris edilən proqramın məzmunu eyni olduqda müxtəlif ixtisas və istiqamət üzrə tədris qrupları birləşdirilir.

3.3.Ali məktəblərdə professor-müəllim heyəti tədris yükü, elmi –tədqiqat, elmi-metodiki işlər aparılır; müxtəlif növ təcrübələr, elmi-tədqiqat, kurs, diplom və dissertasiya işlərinə rəhbərlik edir, imtahan və məqbullar qəbul edir və ictimai işlər aparır, onların ümumi iş saatı (1 stavka üçün) 36 saatlıq iş həftəsinə görə hesablanır. Bu iş vaxtının 450-500 saat dərs yüküdür. Müstəsna hallarda professor-müəllim 1,5 stavka dərs yükü verilə bilər. Müəllimin dərs yükünə mühazirə, məşğələ, laboratoriya, seminar, məsləhət saatları; kurs, diplom və disertasiya işlərinə rəhbərlik; imtahan və məqbullar üçün ayrılan saatlar daxildir.

Professor-müəllim heyətinin tədris işinin hər bir növü üçün vaxt norması müəyyənləşdirilməsi təsdiq olunmuş normativlər əsasında həyata keçirilir.

Kafedralarda çalışan professorlar illik dərs yükünün 25 – 40%-ni mühazirə; 20-40%-ni kurs, diplom və disertasiya işlərinə rəhbərlik və məsləhətlər, qalan hissəsini isə seminar məşğələ və laboratoriya dərsləri təşkil edir.

Dosentlərin və baş müəllimlərin dərs yükünün 25 – 50%-ni mühazirə, 15 – 25%-ni kurs və diplom işlərinə rəhbərlik, qalan hissəsini isə seminar məşğələ və laborotoriya dərsləri təşkil edir.

Müəllim və assistentlərin dərs yükü əsasən seninar və məşğələlərdən, əsasən elmi dərəcəsi olan assistentlərin dərs yükü isə həm də dərs kurs və bakalavr pilləsi üçün buraxlış işlərinə rəhbərlikdən ibarət olu. Elmi dərəcəsi olan assistentlərə fakultə Elmi şurasının razılığı ilə ixtisas kurslarında mühazirələr aparmağa icazə verilir, (ümumaliməktəb kafedrasında çalışan elmi dərəcəli assistentlər belə icazəni işlədiyi kafedranın ümumi iclası verilir).

**4. Ali təhsil müəssisəsinin strukturuna dair ümumi məktəblər.**

4.1.Dövlət ali təhsil müəssisəsinə mövcud qaydada seçilmiş və ya təyin olunmuş rektor (başçı) rəhbərlik edir. Rektorun yardımçıları prorektorlarıdır. Üçüncü qrup ali məktəblərdə 2 (tədris-elmi və inzibati təsarufat işləri üzrə) 1-ci və 2-ci qrup ali məktəblərdə 3 (tədris tərbiyə, elm, inzibati-təsarufat işləri üzrə) prorektor ştatı ayrılır. 1 və 2-ci qrup ali məktəblərə, xüsusiyyəti nəzərə alınmaqla daha bir prorektor ştatı da verilə bilər. Mədəniyyət, incəsənət, idman təmayullu ali təhsil müəssisələrində istisnalar ola bilər.

4.2.Ali təhsil müəssisələrinin strukturu aşağıdakılardan ibarətdir:

- rəhbərlik (rektor və prorektorlar);
- ümumi şöbə (dəftərxana);
- mühasibat;

- şöbələr (kadrlar, plan, tədris, elm, aspirantura, tələbə, xarici əlaqələr və s.);
- fakultələr (hazırlıq, ixtisas və istiqamətlər, ixtisasartırma və yenidən hazırlanma, xarici vətəndaşların təhsil və s. üzrə);
- arxiv;
- kafedralar;
- elmi-tədqiqat labaratoriyaları;
- konstruktor büroları;
- kitabxanalar;
- nəşriyyatlar;
- mətbəələr;
- filiallar;
- tədris və metodika kabinetləri;
- tədris laboratoriyaları;
- tədris-istehsalat emalatxanalrı və sexləri;
- tədris-istehsalat təsərrüfatları;
- təlim-təcrübə meydanları;
- idman bazaları və qurğuları;
- tələbə, aspirant, dinləyicilər üçün yataqxanalar;
- istrahət zonaları;

- bütün ali məktəblərdə ümumi şöbə və mühasibat müstəqil şöbə kimi fəaliyyət göstərir;

- kadırlar şöbəsi yalnız əməkdaşların ümumi sayı 300-dən artıq olduqda yarıdılır, digər hallarda müəssisədə kadrlar üzrə inspektor fəalliyyət göstərir.

- Tədris şöbəsi ali məktəblərdə dərs yükü 200 min saatdan çox olduqda yaradılır, dərs yükü 200 min saatdan az olduqda bu sahəyə tədris işləri üzrə inspektor rəhbərlik edir;

- Elmi- təqiqat şöbəsi ali təhsil müəssisəsindəki elmi-təqiqat laboratoriya və institutlarında, təsərrüfat hesabı işlərdə çalışanaların tam ştat üzrə sayı vəya bu bölmələrə atrılan maliyyə vəsaiti ali məktəbin özünün əsas işcilərinin sayının və ya maliyyə vəsaitinin 10%-dən çox olduqda yardılır;

- Aspirantura (doktorantura) şöbəsi aspirantların (doktorantların) ümumi sayı 100 nəfərdən (əyani aspirantların sayı 50 nəfərdən) çox olduqda yardılır, disertant və qiyabi aspirantların sayı 1/2-yə vurulur, digər hallarda bu məsələyə elmi-tədqiqat və elmi pedaqoji kadrların hazırlanmsı işi üzrə inspektor rəhbərlik edir.

Müəyyən ixtisas və istiqamətlər üzrə fakultələr tələbələrin ümumi sayı 300 nəfərdən çox (bunadn 200 nəfərdən çox əyani şöbədə) olduqda yaradılır. Bütün hallarda fakültə yaranan kimi ştatda fakultə dekanı müavini nəzərdə tutulur. Tələbələrin sayı 800 nəfərdən çox olduqda isə hər əlavə 500 nəfər əyani şöbədə oxuyan tələbə üçün bir dekan müavini ştatı əlavə olunur. Digər fakültələr (hazırlıq, ixtisasartırma və s.) müvafiq kontingent olduqda yaradılır. Fakültələrə dekanlıq rəhbərlik edir. Dekan və dekan müavinləri tutduqları vəzifə üçün müvafiq normativ əsasında əmək haqqı alır.

Müəyyən ixtisaslar üzrə kafedralar minimum 3000 saat dərs yükü, ştatında minimum 3 nəfərin elmi adı və dərəcəsi olduqda yaradılır. Kafedraların yaradılması və fəaliyyəti üçün lazımm olan dərs yükü hesablandıqda kurs diplom və disertasiya işlərinə elmi rəhbərlik, məqbul və imtahanlar, eləcə də məsləhətlər üzrə ayrılan saatlar nəzərə alınmır.

Dərs yükü 10min saatdan az oluduqda eyni adda, eyni yönümdə və ya eyni ümumi fənnin müxtəlif bölməsi üzrə kafedraların yaradılmasına icazə verilmir. Ayrı-ayrı fakültələrin nəzdində yalnız həmin fakültəyə xidmət edən qeyri-ixtisas kafedralarının yaradılmasına yol verilmir.

Kafedralar mövcud qaydad seçilmiş və ya təyin olunmuş kafedra müdiri rəhbərlik edir.

Ali təhsil müəssisələrində müvafiq xidmətlər göstərən mustəqil bölmələr və ya ştatlar olduqda (elektrik, fotoqraf, çildci və s.) ayrı-ayrı kafedralara belə ştatlar verilmir.

Kafedralardakı labarant ştatlarının sayı illik ümumi dərs yükünün həcminin humanitar kafedralarda 0,5-ə, texniki, təbiət, tibbi və s. kafedralarda 0,5 mislinə vurularaq bir labarantın illik iş saatının miqdarına bölünməsindən alınan sayla müəyyənləşdirilir. Bu məsələni daha effektli tənzimlənməsi üçün zəruri hallarda eyni bir şəxsin 1,5 stavkaya qədər işləməsinə də icazə verilir. İxtisasca kafedraların və müvafiq tədris laboratoriyalarının profilinə uyğun gəlməyən şəxslər kafedralarda mühəndis-texnik və laborant vəzifələrinə götürülmür. Köməkçi heyətin hər 5 il dəfə müəyyən olunmuş qaydada attestasiya keçirilir. Yalnız attestasiyanın nəticələrinə uyğun olaraq onların tutduğu vəzifə və peşə dərəcəsi dəyişə bilər.

Elmi-təqiqat laboratoriyaları və konstruktor büroları müddəti təsdiq olunmuş və əvvəlcədən dəyəri müəyyənləşdirilmiş elmi təqiqat və ya texnoloji konstruktor işlərinin yerinə. Mövzu (tapşırıq) bitdikdən, yaxud onun yerinə yetirilməsi müddəti başa çatdıqdan sonra həmin laboratoriya konstrukyor büroların öz fəaliyyətini dayandırır. Buna görə də onların əməkdaşlıqları əvvəlcədən müəyyən olmuş müddətə kontrakla işə qəbul olunurlar. Müəyyən mövzular üzrə elmi-təqiqat laboratoriyalarınınn büroların təşkili və ləğvi yalnız ali məktəbin təsiscisi tərəfindən həyata keçirilir.

Ali təhsil məssisəsinin filialları onların tərkibi hissəsi olub, yalnız həmin təhsil müəssisəsinin yerləşdiyi yaşayış məntəqəsindən kənarda fəliyyət göstərir. Filiallarda onların yerləşdiyi regionda ehtiyac duyulan və yalnız əsas ali məktəbdə hazırllanan istiqamət və ixtisaslar üzrə bakalavr pilləli mütəxəssis hazırlanır.

**5. Ali təhsil müəssisələrinə qoyulan tələbələrin icrasına dövlət nəzarəti:**

5.1.“Minimum normalar”ın tələblərinə əməl edilməsinə dövlət nəzarəti Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunur.

5.2.“Minimum normalar”ın tələblərinə əməl olunmasına dövlət nəzarətitnin təşkilini maraqlı nazirlik və idarələrlə birlikdə Azərbaycan Respublikası Təhsil Nazirliyi və onun nəzdindəki təhsil qanunvericiliyin icrasına və təhsil dövlət standartlarına nəzarət idarəsi həyata keçirir.

5.3.“Minimum normalar”ın tələblərinə riayət etməyə ali təhsil müəssisələri qanunvericiliyə görə məsuliyyət daşıyırlar.